F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Kiçik oxucuların sevimli yazarı
# Reyhan Yusifqızı



***(Veblioqrafiya)***

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, daxili nömrə: 25**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

## Giriş

Reyhan Yusifqızı uşaqların qəlbinin səsini duyan, sözləri ilə onları gülümsədən, yazdığı əsərlərlə onların dünyasına sevgi, ümid və mərhəmət gətirən yazıçılardan biridir.

Uşaqlar üçün elmi-kütləvi kitablar və elmi-fantastik povestlərin müəllifi, pedaqoq, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Reyhan Yusifqızı 1965-ci il 13 noyabr Bakı şəhərində anadan olmuşdur. 1972–1982-ci illərdə Bakı şəhəri 5 saylı orta məktəbdə və 20 saylı musiqi məktəbinin fortepiano sinfində oxumuş, 1982-ci ildə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olmuş, 1987-ci ildə həmin universiteti fərqlənmə diplomu ilə bitirərək Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutuna təyinat almışdır. 1990-cı ildən Bakı Dövlət Universitetində işləməyə başlamışdır.

Reyhan Yusifqızı Azərbaycan uşaq ədəbiyyatında intellektual prozanın parlaq nümunələrini yaratmışdır. O, 100-dən çox povest və hekayənin, nağıl və poemanın, elmi-kütləvi və elmi-fantastik kitablar seriyasının, o cümlədən elmi-fantastik trilogiya təşkil edən "Yaşıl gözlü qız", "Zamanın əsirləri" və "Uzaq planetin sirri" kitablarının, həmçinin, süni intellektə həsr olunmuş "Dostum Mimi" əsərinin müəllifidir.

Reyhan Yusifqızı Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondunun dəstəyi ilə həyata keçirilən bir neçə layihənin rəhbəri və ya aparıcı işçisi olmuşdur. Mütəmadi olaraq Tətbiqi riyaziyyat və kibernetika fakültəsində dərslər aparır, qeyri-müəyyənliklərlə bağlı yeni nəzəriyyələri - Soft Komputing nəzəriyyələrini tədris edir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi Reyhan Yusifqızının 60 illik yubileyini təbrik edir və gələcək fəaliyyətində ona uğurlar arzu edərək yazıçının kitablarının, onun haqqında olan çap məhsullarının tammətnli biblioqrafik siyahısının yer aldığı veblioqrafiyanı hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Reyhan Yusifqızı ilə görüşlər










# Kitabları




Aysu : hekayə / Reyhan Yusifqızı ; red. S. Quliyeva ; rəs. E. Cabbarov ; dizayn. S. Eyvazova, 2012. - 112 s. : il., rəngli foto ; 19 sm.

Kitab Aysu adlı balaca qızcığazın həyatından bəhs edir. Bu qızcığazın həyatı başqa uşaqların həyatına bənzəmir. Tale onunla onunla daha sərt davranıb. Amma onun gözəl qəlbi və böyük arzuları vardır.




"Diribaş qızlar" klubu : Bu kitab təkcə qızlar üçün deyil, həm də oğlanlar üçündür... / Reyhan Yusifqızı ; red. B. Əliyev ; dizayn. M. Allahverdiyev ; il. N. İsayeva, 2022. - 104 s.  : rəngli foto, rəngli il., il. ; 20 sm.

Bu kitabda Selcan və onun dostlarının məktəb macəralarını oxuyacaq, onların sirlərini öyrənəcəksən. Əgər sən də dostlarına inanırsansa, sirrini onlara aça bilərsən.




Dostum Mimi / Reyhan Yusifqızı ; il. S. Vəzirova ; red.: A Cəfərova, F. Hüseynova, 2017. - 84 s. : il., rəngli il. ; 21 sm.

Səkkiz yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulmuş bu əsərdə qonşuluqda yaşayan qoca professor, ikinci sinifdə oxuyan sevimli qız və çəhrayı robot-siçan arasında bəzən gülməli, bəzən həyəcanlı, bəzən də kədərli hadisələr baş verir.




Hamıdan qəşəng / Reyhan Yusifqızı ; rəs.: E. Cabbarov, S. Eyvazova, 2010; 2014. - 12 s. : il. ; 23 sm.

Güllü-çiçəkli bir həyətdə Qaraş adlı balaca, qapqara bir küçük yaşayırdı. O, çox ürəyiaçıq və xeyirxah idi. Hamı onu sevirdi, təkcə Ağmur adlı lovğa pişik Qaraşla yola getmirdi. Hətta onu bərk pərt də etmişdi. Lakin qaraş elə bir qəhrəmanlıq edir ki, nazlı pişik hamının yadından çıxır, diqqətlər Qaraşa yönəlir.




Xoşbəxt arı / Reyhan Yusifqızı ; tərc.ed.: E. Cabbarov, Ş. Rüstəmova, 2013. - 11 s. : rəngli şək. ; 22 sm.

Kitabda balaca arı balasının sərgüzəştlərindən bəhs olunur. Nağıl 6-7 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.




İki gül : nağıl 4-5 yaşlı uşaqlar üçün / Reyhan Yusifqızı ; rəs. Ş. Rüstəmova, 2015. - 12 s. : rəngli il. ; 23 sm.

Bu kitabda bir-birini çox sevən, sadiq qalan güllərdən söhbət gedir.




[Kompüterin kələyi : nağıl 6-7 yaşlı uşaqlar üçün / Reyhan Yusifqızı ; rəs.: E. Cabarov, Ş. Rüstəmova, 2015. - 12 s. : rəngli il. ; 23 sm.]

Bu kitabda kompüterdən əl çəkə bilməyən Toğrulun başına gələnlərdən bəhs olunur.

[Kompüterin qəribə tarixi : Abakdan müasir kompüterlərə qədər / Reyhan Yusifqızı ; red. F. Şıxlinski, 2016. - 112 s. : il., foto ; 20 sm.]

Bu kitabda kompüterlərin qədim dövrlərdən bizim dövrlərə qədər keçən tarixinin inkişaf mərhələləri, bir çox maraqlı epizodlar, məhşur kəşflər, qəribə faktlar, alim və ixtiraçılar, onların həyatı haqda məlumatlar var.







[Qapı arxasında o / Reyhan Yusifqızı ; red. B. Əliyev ; dizayn. S. Ələkbərova, 2023. - 108 s. : rəngli. il. ; 20 sm.]

Yazıçının bu kitabı Ümid adlı məktəbli oğlanın həyatında baş verən gözlənilməz hadisədən bəhs edir. Müəllifin fikrincə, əsər daha çox oğlanların diqqətini çəkəcək. Bu kitabla müəllif oxucuların nisbətini oğlanların xeyrinə dəyişmək niyyətindədir.

Məstan və Babu / Reyhan Yusifqızı ; red. F. Şıxlinski ; rəs.: Z. Cabbarov, S. Vəzirova, Ş. Məmmədqızı, 2016. - 80 s. : rəngli il. ; 23 sm.

Bu kitabda ağıllı Məstan balaca ayı balası Babuya çoxlu maraqlı şeylər öyrədir. Kitabı oxuyub bitirdikdən sonra siz də biləcəksiniz ki, sayları bilmək nəyə lazımdır ? Necə olur ki, yağış yağır ? Saatı necə öyrənmək olar ? Dostlarla necə davranmaq lazımdır ?







Pəncərəni kim sındırdı? : hekayələr / Reyhan Yusifqızı ; ill. A. Quliyev, 2020. - 100 s. : rəngli il., şək. ; 20 sm.

Balaca dəcəllərin macəraları danışmaqla bitən deyil. Görəsən, həyətdə futbol oynayanda qonşunun pəncərəsi qırılsa, mübahisəni necə kəsmək olar? Bəs masanın üstündəki güldanı sındıranda ananın könlünü almaq üçün nə edə bilərsiniz? Balaca oxucular hərdən özlərinin də şahidi və ya iştirakçısı olduqları bu macəralar haqqında oxumaqla çox suala cavab tapa biləcəklər.




Riyaziyyat əyləncəli ola bilərmiş : Ədədlər, əməllər, hesab oyunları / Reyhan Yusifqızı ; elmi red. M. H. Yaqubov ; rəs. E. Cabbarov, 2014. - 128 s. : cədv., şək. ; 18 sm.

Bu kitab həm riyaziyyatı sevənlər, həm də sevməyənlər üçündür. Riyaziyyatı sevənlər bu kitabdan çoxlu maraqlı məlumatlar öyrənəcək, böyük riyaziyyatçıların dedikləri ilə tanış olacaq, ciddi fənn olan riyaziyyata əyləncə qatmağın üstünlüklərini görəcəklər.




[Tələtin sirri / Reyhan Yusifqızı ; rəs.: E. Cabarov, Ş. Rüstəmova, 2015. - 32 s. - : rəngli il. ; 24 sm.]

Kitab dərslərini oxumayan, səliqəsiz, kitab-dəftərləri ilə pis rəftar edən Tələt adlı oğlandan bəhs edir. Günlərin birində onun əlindən təngə gəlmiş kitablar, cırıq dəftərlər və qırıq karandaşlar daha dözmürlər – yığışıb Tələti tərk etməyə qərar verirlər. Bu hadisə Tələti ayıldır. O, dərs yoldaşları ilə barışmaq fikrinə düşür.




[Ulduz pərisi : nağıl 5-6 yaşlı uşaqlar üçün / Reyhan Yusifqızı ; rəs.: E. Cabarov, S. Vəzirova, 2015. - 12 s. : rəngli il. ; 23 sm.]

Bu kitabda qızılsaçlı, şumal dərili Pərinin kor balığla dost olub öz işığını ona verib, onun gözlərini açmasından bəhs edir.




[Uzaq planetin sirri : elmi-fantastik trilogiya. 3-cü kitab / Reyhan Yusifqızı ; red. R. İsmayılov ; rəs. E. Cabarov ; dizayn. S. Vəzirova, 2019; - 2021. - 144 s. il., rəngli foto ; 20 sm.]

Leminin yaşadığı X planetinə bədbəxtlik üz verib. Kiborqlar üsyan qaldırıb! Onlara başçılıq edən Super İntellekt daha insanlara tabe olmur! O, çox güclüdür, bütün sərhədləri aşa bilir. Onun qarşısında kim dayana bilər ? Planeti necə xilas etmək olar ? Macəra dolu bu kitabın müasir uşaqların stolüstü kitabına çevriləcəyinə inanıram!




Yaşıl gözlü qız : elmi-fantastik trilogiya 1-ci kitab / Reyhan Yusifqızı ; red. R. İsmayılov ; rəs. E. Cabbarov ; dizayn. S. Eyvazova, 2010; - 202+1. - 128 s. : il., rəngli foto ; 20 sm.

Müəllifin elmi-fantastika janrında yazılmış birinci kitabıdır. Kitab kosmik qəza nəticəsində Yer planetinə düşmüş 12 yaşlı yadplanetli qızın-Leminin sərgüzəştlərindən bəhs edir. Yadplanetli qız tezliklə Yerdə özünə dostlar və düşmənlər qazanır. Olduqca bilgiverici olan bu əsər təbiət, kainat, astronomiyaya aid məlumatlarla zəngindir.




Zamanın əsirləri : elmi-fantastik trilogiya 2-ci kitab / Reyhan Yusifqızı ; red. R. İsmayılov ; rəs. E. Cabarov ; dizayn. S. Eyvazova, 2014; - 2021. - 176 s. : il., rəngli foto ; 20 sm.

Bu kitab müəllifin elmi-fantastika janrında yazılmış ikinci kitabı, həmçinin "Yaşıl gözlü qız" kitabının davamıdır. Yadplanetli qızın axtarışında olan məktəblilər zaman maşınında keçmişə-Daş dövrünə düşürlər. Sərt təbiət, vəhşi heyvanlar, saysız-hesabsız təhlükələrlə üzləşən uşaqlar, nəhayət, ibtidai insana rast gəlirlər. Əsərin qəhrəmanları ilə birlikdə biz də Daş dövrünün adamları ilə görüşür, onların sevinci, kədəri ilə tanış olur, necə yaşadıqlarını öyrənirik.

## Əsərləri kitablarda

**Yusifqızı R.** Tale yazısı ; Üzbəüz ; Məhəbbət olanda və b. / Şakti qadın dili : Hekayələr toplusu / Reyhan Yusifqızı ; S. Əşrəf, G. Xəzəl, S. Turan [et al.] ; fotoq. G. Xəzəl. - Bakı : Apostrof, 2012. – S. 165-259. : rəngli foto ; 20 sm.




Bu hekayələr toplusu beş qadın yazar tərəfindən ərsəyə gəlmişdir. Kitabda hər yazarın beş hekayəsi yer alıb. Yazarların hər biri öz hekayələrində öz həqiqətlərindən yazdı, öz dünyagörüşünü və dünyadərkini sərgiləyib.

## Əsərləri dövri mətbuatda

**Ağcaqanad** : hekayə // Ədəbiyyat qəzeti. – 2018. – 24 fevral. – S. 8.

**Qar** : hekayə // Ədəbiyyat qəzeti. – 2020. – 3 oktyabr. – S. 21.

**Təranənin arzusu** : hekayə // Ədəbiyyat qəzeti. - 2020. - 5 iyun. - S. 27.

**Üzbəüz** // Ədəbiyyat qəzeti. – 2015. – 2 may. – S. 28-29.

## Haqqında dövri mətbuatda

**Bayramqızı, Ə.** Tanınmış uşaq yazıçısı Reyhan Yusifqızı ilə görüş / Əfsanə Bayramqızı // Xalq qəzeti. - 2019. - 18 may. - S. 10.

**Qəmbərova, G.** Fantastikadan reallığa / Gülnar Qəmbərova // Ədəbiyyat qəzeti 2024. - 1 iyun. - № 20. - S. 18.

Respublika Uşaq Kitabxanasında ədəbi-bədii görüşlər // Mədəniyyət. - 2019. - 22 may. - S. 7.

**Şəfiyeva, H.** Müasir uşaqlarda mütaliəyə sevgi yaratmaq üçün yaxşı əsərlər yazmaq lazımdır : [Reyhan Yusifqızı ilə müsahibə] / Havar Şəfiyeva // 525-ci qəzet. - 2023. - 14 oktyabr. - S. 12.

"Kompüterin kələyi" əsəri fars dilində // Mədəniyyət.- 2021.- 3 fevral. - S. 7.

Uşaq yazıçılarının məktəblilərlə görüşü // Mədəniyyət. - 2015. - 3 iyun. - S. 13.

Uşaq yazıçısı Reyhan Yusifqızı ilə görüş və imza saatı keçirildi // Ədəbiyyat qəzeti. – 15 oktyabr. – S. 22.